# Azərbaycan və Polşa arasında münasibətlərin inkişafından məmnunluq ifadə olunub

Sentyabrın 23-də Milli Məclisin Sədri Sahibə Qafarova Polşa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Pavel Radomski ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfiri Azərbaycanda diplomatik fəaliyyətə başlaması münasibəti ilə təbrik edən spiker Sahibə Qafarova ümidvar olduğunu bildirib ki, o, səfir kimi gələcək fəaliyyətində ikitərəfli əlaqələrimizin daha da genişlənməsinə töhfə verəcək.

Söhbət zamanı ölkələrimiz və xalqlarımız arasında əlaqələrin zəngin tarixə malik olduğu qeyd edilərək, hazırda Azərbaycan və Polşa arasında siyasi və iqtisadi sahədə münasibətlərin inkişafından məmnunluq ifadə olunub. Həmçinin ali və yüksəksəviyyəli səfərlərin əlaqələrin inkişafında mühüm rolu vurğulanıb.

Görüşdə əlaqələrin inkişafında parlamentlər arasında münasibətlərin müsbət rolu, bu istiqamətdə təmasların vacibliyi qeyd olunub. Tərəflər qarşılıqlı səfərlərin, o cümlədən dostluq qruplarının fəaliyyətinin qanunverici orqanlarımız arasında münasibətlərin daha da dərinləşməsinə töhfə verdiyini ifadə ediblər.

Səfir Pavel Radomski ölkəmizin və paytaxt Bakının inkişafı ilə bağlı müsbət fikirlərini ifadə edib. O, işğaldan azad edilmiş torpaqlarımıza səfər etdiyini, orada aparılan genişmiqyaslı quruculuq işlərinin onda dərin təəssürat yaratdığını bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.-24 sentyabr (№ 204).- S.4.